# "Qızıl səs" medalının sahibi Süleyman Abdullayev haqqında tələsik yazı

(əvvəli ötən sayımızda)

**Dördümüz də musiqiyə böyük maraq göstərirdik. Onda bizim 15-16 yaşımız vardı və təbiidir ki, musiqinin incəliklərinə yaxşı bələd deyildik. Biz sadəcə olaraq dinləyici idik. Ona görə də həmin dövr üçün xarakterik olan bir patefon və xeyli sayada plastinka almışdıq. Boş vaxtlarımızı musiqini dinləməklə keçirirdik. Ülfət müəllim də bir qayda olaraq asudə vaxtlarında bizimlə birlikdə musiqiyə qulaq asmaqdan zövq alırdı.**

Bir dəfə otaq yoldaşlarımdan biri 4 plastinka alıb gətirdi. Amma onların üzərində oxuyanların adı yazılmamışdır. Biz onları patefonda yerləşdirb maraqla qulaq asmağa başladıq.

**Əziziyəm Qarabağ,**
**Şəki, Şirvan, Qarabağ**
**Aləm cənnətə dönsə,**
**Yaddan çıxmaz Qarabağ**

Səsindən, avazından o saat Arif Babayevi tanıdıq və onun şövqlə oxuduğu şikəstəni, mahnını və segahı gözümüzə-könlümüzə yığdıq.



İkinci plastinka səsləndi. Ruhumuzu yerindən oynadan bu səsi eşidəndə oturacaqlarımızı bir az da irəli çəkdik, az qaldıq ki, patefonun qarnına girək:

**Sahil sakit, çəkilibdir ayaqlar,**
**Coşan dalğa qayaları qucaqlar**
**Deyəndə ki, gəl qayıqla gəzək, yar**
**Çatıb qara qaşlarını nədən sən,**
**Olmaz, olmaz, olmaz, olmaz deyirsən.**

... Sonra adamı iliyindən sümüyünəcən dondurmaq təsirində olan segah, "Aman Allah, bu nə səsdi belə?" Nə zaman ayağa qalxdığımızı özümüz də bilmədik. Qədir Rüstəmovu oturulu halda dinləmək mümkün deyildi, axı!

Mahnı oxunarkən Ülfət Muxtarov üzünü mənə tutub dedi:

-Bu mahnını sənin yerlin Zöhrab Abdullayev bəstələyib. O, çox istedadlı bir şəxs idi, lakin təəssüflər olsun ki, lap gənc yaşlarında dünyasını dəyişmişdir. Əlavə olaraq onu da bildirdi ki, Zöhrab xalq xanəndəsi Ağabala Abdullayevin oğludur.

Üçüncü plastinkadan "Dəşti" təsnifi səslənər-səslənməz mübahisə başladı.

Uşaqlardan biri dedi:

-Oxuyan Sabir Mirzəyevdi.

Digər dedi:

-Nə danışırsan, qaqaş, oxuyan Süleyman Abdullayevdi.

Bayaqdan bizimlə birlikdə musiqiyə qulaq kəsilən Ülfət müəllim mübahisəyə bir cümlə ilə son qoydu. Süleymanın səsini tanımamaq sadəcə olaraq günahdı.

Söz ardı: Müasir insanları adi musiqi ilə, elə-belə səslə ovutmaq, əgər belə demək mümkünsə, birtəhər yola vermək mümkün deyil. Bunun üçün müasirlər gərək xalq xanəndələrinə dəfələrlə qulaq assınlar, onlardan öyrənsinlər. Bu gün muğam müsabiqələrinin keçirilməsi Azərbaycan musiqisinə, incəsənətinə göstərilən diqqət və qayğının təzahürüdür. Müsair gənclik S.Abdullayev kimi ustad xanəndələrdən çox şey əxz edə bilər.

S.Abdullayevin bal kimi səsi var. Onun hər bir avazı ruhumuza hopduqca sabaha inamımız artır, gələcəyə ümidimiz daha da ovxarlanır.

S.Abdullayevi hamı tanıyır, hamı sevir. Onu ictimaiyyət arasında tanıdan, ona el-oba sevgisini qazandıran yalnız məlahətli səsi deyil, həm də yüksək insani keyfiyyətləridir. Ona "Dədə" titulunun verilməsi də xalq sevgisinin, xalq məhəbbətinin ifadəsidir.

Həyatda az adam tapılar ki, onlar valideynlərinin verdikləri ad ilə bərabər, həm də xalqın verdiyi adla tanınsın, çağırılsın. Bu "Dədə" sevgisiylə çağırılan Dədə Süleymandır.



Dədə ağsaqqal deməkdir. S. Abdullayev də musiqimizin ağsaqqallarından biridir.

Ruhuyla, canıyla, qanıyla doğma Azərbaycana bağlı olan Dədə Süleyman həm də əməlləri ilə mənsub olduğu millətin, xalqın adını həmişə uca tutur. Onun qazandığı uğurlar, çatdığı şöhrət xalqına hörmət və ehtiramın təntənəsidir.

Elə burdaca tanınmış azərbaycanlı rəssam Tahir Salahovun bir kəlamını qeyd etmək istərdim. Bu kəlam sanki S.Abdullayevi təsvir edir, təsəvvürdə onun obrazını canlandırır: "Həyatda elə insanlar var ki, onların qazandıqları uğurlar, çatdıqları şöhrət öz taleləri ilə bağlı deyil, mənsub olduqları millətin, xalqın adına yazılır".

Xalq yalnız sevdiyi insanları yaddaşında saxlayır. Söz-sənət adamının bəşəriyyətin inkişafı üçün köklənən ürəyindən qopub gələn hər bir söz, səs ətrafdakıların ruhuna sığal çəkirsə, deməli, həmin şəxsin ömrü əbədiyaşardır. Ümummilli Liderimiz Heydər Əliyev demişkən: "Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər".

Süleyman Abdullayev şax yeriməyi, şux gəzməyi bacarır və buna hərtərəfli haqqı var. Çünki o, heç kimin yanında gözükölgəli deyil. Onun fəaliyyətinə nüfuz etdikcə bir daha əmin olduq ki, S. Abdullayev bu şan-şöhrətə asanlıqla nail olmayıb. Onun musiqi həyatı gərginliklərdən, çətinliklərdən, maneələrdən keçib. Bəzən onun haqlı çıxışlarına dodaq büzənlər də olub, obyektiv fikirlərinə laqeyd yanaşanlar, könüloxşayan mahnılarını, adamı heyran edən segah muğamlarını efirə gecikdirənlər olub. Lakin heç bir maneə onu öz yolundan sarpdıra, öz istəyindən döndərə, arzularından çəkindirə bilməyib.

Bu gün dünyanın əhali xəritəsində nöqtə kimi görünən bir şəhərdən-Bakıdan radio dalğaları vasitəsi ilə cahana yayılan S. Abdullayevin zəngulәsi Azərbaycandan çox-çox uzaqlarda, okeanların o tayında da eşidənlərin ürəyinə yağ kimi yayılır.

Onun qəlbində insanlara, cəmiyyətə, xalqına qarşı sonsuz sevgi var. Elə onun boğazından süzülüb bəşəriyyətə yön alan səsi də bu sevgidən, istəkdən bəhrələnir. Ruhumuza sığal çəkən bu ecazkar səs bu gün vulkan kimi püskürən, dəniz kimi qabaran dünyanı barışa, dostluğa səsləyir.



Yeri gəlmişkən: 1975-ci ildə Şuşada "Güllü bağ" deyilən parkda gəzirdik. Yaxınlıqdakı oturacaqda orta yaşlı beş-altı kişi əyləşəib söhbət edirdilər. Bu zaman əlində radio olan bir cavan oğlan onların yanından ötüb keçirdi. Onun əlində tutduğu radiodan Süleyman Abdullayevin məlahətli səsi eşidilirdi. Oturanlar söhbətlərini yarımçıq qoyub musiqiyə qulaq asmağa başladılar. Oğlan onların yanından ötüb keçəndə istirahət edənlərdən biri ona dedi:

-Bacoğlu, bir az ayaq saxla, biz də Süleymana qulaq asaq.

Oğlan dayandı. Başqa birisi isə üzünü oğlana tutub dedi:

-Mən ölüm, onun xodunu bir az artır, bu kişi bizi lap dəli elədi.

Şirin bir muğam ətrafa yayıldı:

Xəstə çox şey dilər, amma ona qismət olmaz,

Xəstəyə zülm nə lazım, bu mürvət olmaz

Kimsə atmaca atdı:

-Əşşi, elə xəstəyik dana.

Başqa birisi etiraz elədi:

-Niyə xəstə oluruq, qağa?

-Xəstəyik dana, Süleyman Abdullayevin səsinin xəstəsi.

Söz ardı: Kökünə, geninə, qan yaddaşına bağlı olan, millətini, dövlətini varlığı qədər sevən bir sənət fədaisinin geriyə baxanda qürur hissi keçirməyə haqqı var. Bunu bizə yarım əsrdən artıqdır ki, radio dalğalarından və televiziya kanallarından qədirşünas xalqımız üçün oxuduğu muğam, təsnif və mahnılar söyləməyə əsas verir.

Biz bu yazımızda şərəfi və şəxsiyyəti harmoniya təşkil edən məğrur bir xalq xanəndəsinin həyatı və fəaliyyətini özünə layiq ifadələrlə oxucularımıza çatdırmaq istədik. "Ya göründüyün kimi ol, ya da olduğun kimi görün" kəlamına rəğmən S. Abdullayevi olduğu kimi təqdim etməyə çalışdıq. Buna nail olduqmu, ya olmadıqmu, bunu qədirşünas oxucularımızın insafına və ixtiyarına həvalə edirik.

**Gəlimli-gedimli, son ucu ölümlü dünyada insan öz adı, soyadı, bir də əməlləri ilə qalır. Bu baxımdan S.Abdullayevin bəxti gətirmişdir. Onun adı musiqi tariximizə qızıl hərflərlə yazılmış, bənzərsiz səsi musiqisevərlərin hafizəsinə hopmuşdur. On illər ötsə belə bu ad heç vaxt unudulmayacaq, bu gün biz eşitdiyimiz kimi, gələcək nəsillər də radio dalğalarından, televiziya kanallarından eşidəcək, internet səhifələrindən tanış olacaqlar: "Oxuyur xalq xanəndəsi Süleyman Abdullayev!".**

**Faiq ŞÜKÜRBƏYLİ,**
**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü**